

■ Xanım Aydın

Cabarzadə Cavid Qorxmaz oğlu Vətən müharibəsinə sentyabrın 29-da könüllü olaraq qoşulub. Peşəkar snayper-kəşfiyyatçı olan Cavid Zəngilan, Cəbrayıl, Füzuli, həmçinin də Laçın uğrunda gedən savaşda ön cəbhədə döyüşüb, bir sıra kəndlərin və yaşayış məntəqələrinin alınmasında yaxından iştirak edib. O, peşəkar snayperçi olduğundan düşmən mövqelərini dəqiqliklə atəşə tutub, qarşı tərəf hərbi texnika, həm də canlı qüvvə sarıdan böyük itkilərlə üzləşib. Oktyabrın 24-də Laçın dəhlizi yaxınlığında qızğın döyüşlərdə düşmən tərəfindən açılan intensiv atəş nəticəsində ayağından ağır yaralanıb, yerindəcə qan itkisindən dünyasını dəyişərək müqəddəs şəhidlik zirvəsinə ucalıb. İkinci Fəxri xiyabanda dəfn olunub. Qeyd edək ki, Cabarzadə Cavid "Aprel döyüşləri"nin də iştirakçısı olub.

## *CAVİDƏ*
## *Anasının dilindən*

Harda yaralı əsgər görsəm,
qaşında çapıq gəzirəm,
Bir nişanə axtarıram,
Bir oxşarlıq axtarıram.
Bilirəm ki, tapacağam
Harda olsan...
Balam, bu qəbrin üstündə
Sənin öz adın yazılıb,
Sənin soyadın yazılıb,
Atanın da adı yazılıb.
Bilirəm mən indi burda
Bir başqa əsgərimizi
Ana kimi, bacı kimi
Ağlayıram...
Bəlkə, o da sənin kimi
Ucaboy, yaraşıqlı idi.
Sənin kimi gülər üzlü,
Hamıya dost, qardaş idi.
Şəhadətin mübarəkdi!
Nə deyim? Bu da qismətdi...
Yoxdu anası yanında
Ağlayıram balam kimi,
Oxşayıram balam kimi...
Ay ciyərimin parası,
Səsin gələr hardasansa
Yoxluğuna inanmıram.
Ümid yeməkdən yaxşıdı,
Vallah-billah bir qurtum da
Boğazımdan su keçmir -
Gözləyirəm...
Bu dünyada ən son günəş doğanacan,
Qiyamətlər qopanacan,
Bu kainat, bütün dünya
Ən son günün yazanacan.
Gözləyirəm...

### QAYIDACAQSAN

Sən uca məqamdasan -
ucalıq əbədi, o ucalıq zirvədir.
Sən açıq səmadasan -
səma tərtəmizdir, o səma müqəddəsdir.
Sən təkcə mənim deyil,
Sən təkcə bizim deyil,
Sən elin, obanın
Vətən - Azərbaycanın
Bütün canlardan canlı
Dipdiri əfsanəsi!
Sən dastanlardan,
Sən nağıllardan gələn,
Dipdiri qəhrəmansan!
Sən uca məqamdasan!
Hicran əbədi olmur,
Mən yolda, sən yoldasan.
Ya mən sənə gələcəm,
Ya sən qayıdacaqsan...

### ÜMİD

Sən dünyaya gələndə
Elə adi uşaqdın.
Hamı kimi yeridin,
Hamı kimi böyüdün,
Vaxtında diş çıxardın,
Vaxtında ayaq açdın,



Vaxtında da dil açdın.
Hər şey vaxtında oldu.
Sən ki belə dəqiqdin,
Heç yerə gecikmirdin,
Heç yerə tələsmirdin.
Bircə sənin gedişin
Niyə belə vədəsiz,
Vaxtsız-zamansız oldu?..
Bu gedişin adı yox,
Bu gediş müəmmadır.
Göz yaşımla suladım -
Umudum ovcumdadır.
Bəlkə, bir gün göyərdi -
Pənahım Tanrımadır...

### YOXLUĞUN

Bir aydır ki, yoxsan...
Yoxluğuna "yox" deyirəm, inanmıram.
Hər səhər xörək asıram,
Hər axşam süfrə salıram,
Adına da pay qoyuram,
Gəlmirsən...
Bir aydır həyətimizdə
Sülh göyərçinlərinə
Dən qoyuram, su qoyuram -
Ehsan kimi...
Qapımızda dalğalanan üçrəngli bayrağına
Boylanıram...
Küçədən adamlar keçir,
"Şəhid qapısı"dı deyir.
Qəhər, qürur - heç bilmirəm
Hansı daha üstə keçir...
Gözlərimi bərk yumuram,
Elə hey xəyal qururam,
Ümid üstə ümid yığıb
Ümidimdən ev qururam,
Ümidimlə ovunuram.
Mən də inadkar adamam
Yoxluğuna "yox" deyirəm, inanmıram...

* * *

Sən səmanın üzündə
Şəhidlik zirvəsində
Mən isə yer üzündə
Axtardım səni, balam...